

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 34 (21.444)

20 fevral 2016-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 19-da Fransa Senatının Yuxarı Reyn Departamentindən olan senatoru, Fransa-Qafqaz dostluq qrupunun üzvü, sabiq nazir Jan-Mari Bokelin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı Fransa parlamenti üzvlərinin ölkəmizə səfərlərinin ənənəvi xarakter daşıdığını vurğulayaraq nümayəndə heyətinin hər dəfə yeni tərkibdə Azərbaycana səfər etmələrini müsbət hal kimi dəyərləndirib və səfərin Azərbaycanla yaxından tanış olmaq üçün yaxşı fürsət yaradacağını bildirib. Fransa parlamenti üzvlərinin Azərbaycana mütəmadi səfərlərinin əhəmiyyətinə toxunan Prezident İlham Əliyev bu cür səfərlərin ölkələrimiz arasında dostluğun daha da gücləndirilməsi baxımından rolunu qeyd edib. Dövlətimizin başçısı ölkələrimiz arasında ikitərəfli münasibətlərin möhkəmləndirilməsində siyasi və iqtisadi əlaqələrlə yanaşı, parlamentlərarası əməkdaşlığın da mühüm əhəmiyyət daşıdığını deyib.

Jan-Mari Bokel Fransa parlamenti üzvlərinin ölkəmizə ənənəvi səfərlərinin əhəmiyyətini qeyd edib. O, nümayəndə heyəti üzvlərinin Azərbaycanın dostları olduğunu bildirib. Xocalı soyqırımının ildönümü ərəfəsində ölkəmizə səfər etdiklərini vurğulayan fransalı qonaq xalqımızın üzləşdiyi bu ağır fəlakətlə bağlı kədərini ifadə edib.

Görüşdə dövlət başçıları arasında xüsusi münasibətlərin olduğu qeyd edilib, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin hazırkı vəziyyəti və həlli yollarından danışılıb, münaqişənin sülh və danışıqlar yolu ilə beynəlxalq hüquq çərçivəsində nizama salınmasının vacibliyi vurğulanıb, Azərbaycanın Avropa strukturları ilə əməkdaşlığı məsələləri ətrafında fikir mübadiləsi aparılıb.

## M.A.Qəribovun Naxçıvan Muxtar Respublikasının təhsil naziri təyin edilməsi haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Məmməd Abdulla oğlu Qəribov Naxçıvan Muxtar Respublikasının təhsil naziri təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 fevral 2016-cı il*

## "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında

### Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Naxçıvan Muxtar Respublikasında dövlət qulluğunda səmərəli fəaliyyətlərinə görə:

Abbasov Asiman Əjdər oğlu
Hacıyev Babək Məmməd oğlu
Orucəliyev Abil Elmar oğlu – **"Rəşadətli əməyə görə"** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 19 fevral 2016-cı il*

## 2016-cı ilin yanvar ayı üzrə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı

Muxtar respublikada 2016-cı ilin yanvar ayında 149 milyon 359 min 800 manatlıq ümumi daxili məhsul istehsal olunmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,2 faiz çoxdur.

Hər bir nəfərə düşən ümumi daxili məhsulun həcmi 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz artaraq 335,9 manata çatmışdır.

* * *

Muxtar respublikada yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Sənaye üzrə 86 milyon 282 min 800 manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 1,8 faiz üstələmişdir.

* * *

İnfrastruktur quruculuğu çərçivəsində cari ilin yanvar ayı ərzində muxtar respublikada əsas kapitala 46 milyon 901 min 500 manat həcmdə investisiya yönəldilmişdir. Əsas kapitala yönəldilmiş investisiyaların 44 milyon 218 min 100 manatı və ya 94,3 faizi tikinti-quraşdırma işlərinin payına düşmüşdür.

* * *

2016-cı ilin yanvar ayında informasiya və rabitə xidmətlərinin həcmi 3 milyon 650 min manata yaxın olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 0,9 faiz çoxdur. Bu müddət ərzində mobil rabitə xidmətlərinin həcmi 2 milyon 901 min manat olmaqla bir il öncəki göstəricini 1,9 faiz üstələmişdir.

* * *

Cari ilin yanvar ayı ərzində 6 milyon 954 min manatdan artıq həcmdə kənd təsərrüfatı məhsulu istehsal olunmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricini 3,1 faiz üstələmişdir. Bu dövr ərzində muxtar respublikada diri çəkidə 1,7 min ton ət, 1,9 min ton süd istehsal edilmiş, 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 1,7 faiz, süd istehsalı 1,5 faiz artmışdır.

* * *

Əhali gəlirlərinin artımı davam edir. 2016-cı ilin yanvar ayında muxtar respublikada əhalinin gəlirləri 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz artaraq 102 milyon 259 min manat, onun hər bir nəfərə düşən həcmi isə 0,3 faiz yüksələrək 230 manat təşkil etmişdir.

* * *

2015-ci ildə muxtar respublika iqtisadiyyatında bir işçiyə hesablanmış orta aylıq əməkhaqqının məbləği 399,5 manat təşkil etmiş və bu göstərici əvvəlki illə müqayisədə 2,1 faiz artmışdır.

* * *

Muxtar respublikada bank sektorunun normal fəaliyyəti təmin edilmişdir.

1 fevral 2016-cı il tarixə muxtar respublikanın banklarında açılmış bank hesablarının sayı 53204-ə çatmışdır ki, bunun da 50170-i və ya 94,3 faizi aktiv hesablardır. 2016-cı ilin yanvar ayında açılmış 209 bank hesabının hamısı aktiv hesablar olmuşdur.

Muxtar respublikada POS-terminalların sayı 1 fevral 2016-cı il tarixə 1069-a çatdırılmışdır.

* * *

Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı xarici ticarət əlaqələrinin genişlənməsinə müsbət şərait yaratmışdır. Cari ilin yanvar ayında muxtar respublikada 25299,8 min Amerika Birləşmiş Ştatları dolları həcmində xarici ticarət dövriyyəsi qeydə alınmışdır. İxracın həcmi son bir il ərzində 1,2 faiz artaraq 23596,2 min Amerika Birləşmiş Ştatları dolları, idxalın həcmi isə 41,3 faiz azalaraq 1703,6 min Amerika Birləşmiş Ştatları dolları həcmində olmuşdur. Xarici ticarət üzrə 22 milyon Amerika Birləşmiş Ştatları dollarına yaxın həcmdə müsbət saldo yaranmışdır.

* * *

Təsərrüfat subyektlərinin kredit resurslarına çıxış imkanları davamlı olaraq yaxşılaşdırılmaqdadır. 2016-cı ilin yanvar ayında muxtar respublikanın bank və kredit təşkilatları tərəfindən hüquqi və fiziki şəxslərə 2439 min manat məbləğində kreditlər verilmişdir.

* * *

2016-cı ilin yanvar ayında muxtar respublikada bütün sığorta növləri üzrə daxilolmalar 329,8 min manat olmuşdur ki, bu da 2015-ci ilin müvafiq dövrü ilə müqayisədə 4,9 min manat və ya 1,5 faiz çoxdur.

* * *

Bu ilin yanvar ayında muxtar respublikaya 15 min 231 nəfər turist gəlmişdir ki, bu da 2015-ci ilin müvafiq dövründəki göstəricidən 3,2 faiz çoxdur.

* * *

1 yanvar 2016-cı il tarixə muxtar respublikada əhalinin sayı bir il öncəyə nisbətdə 4641 nəfər və ya 1,1 faiz artaraq 444423 nəfər təşkil etmişdir.

***Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin mətbuat xidməti***



***Muxtar respublikamızda həyata keçirilən tikinti-quruculuq tədbirləri çərçivəsində əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması üstün istiqamət verilən sahələrdən biridir. Son illərdə Naxçıvan şəhərində və rayon mərkəzlərində onlarla yaşayış binası yenidən qurulub, yeni binalar tikilib.***

## *"Gənclər şəhərciyi"* yaşayış kompleksində işlər davam etdirilir

Muxtar respublikada əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində atılan bu addımlar gənc ailələrin də yeni mənzillərlə təmin olunmasına imkan verib. Əgər gənc ailələrin bir qismi fərdi ev inşa etməyi seçirsə, digər böyük bir hissəsi isə hazır mənzil almağa üstünlük verir. Muxtar respublikada gənclərin mənzilə olan tələbatının ödənilməsi məqsədilə Naxçıvan şəhərinin Əziz Əliyev küçəsində yeni yaşayış kompleksinin – "Gənclər şəhərciyi"nin tikintisi aparılır. "Gənclər şəhərciyi" bu məqsədlə inşa olunan ilk yaşayış kompleksidir. Kompleksin ümumi ərazisi 23 min 109 kvadratmetrdir.

Ərazidə ikisi 9 mərtəbəli, ikisi 11 mərtəbəli, ikisi isə 13 mərtəbəli olmaqla, 6 bina yerləşir. Hazırda buradakı 9 mərtəbəli iki binada son tamamlama işləri aparılır, 11 mərtəbəli iki binanın isə fasad hissəsi boyanır. Digər 13 mərtəbəli binalarda isə hörgü işləri başa çatdırılıb, dam örtüyü vurulub, hazırda daxildə suvaq işləri davam etdirilir.

Tikinti obyektindən verilən məlumata görə, yeni yaşayış kompleksindəki 4 binada mənzillər iki və üçotaqlı, 13 mərtəbəli binalarda isə bir, iki, üç və dördotaqlıdır. Ümumilikdə, binalarda 506 mənzil yerləşir. Bundan əlavə, yaşayış kompleksinin qarşı tərəfində 133 avtomobil yerlik yeni park da istifadəyə hazırdır. Digər 188 yerlik avtopark isə binada yaşayan sakinlərə xidmət edəcək. Şəhərciyin kommunal-məişət şəraiti və sosial infrastrukturu da ən müasir tələblər səviyyəsində qurulacaqdır. Həyətyanı sahədə müasir işıqlandırma və təhlükəsizliyi təmin etmək üçün videonəzarət sistemləri quraşdırılacaq, idman və istirahət meydançaları yaradılacaq. Bundan əlavə, ərazidə yeni uşaq bağçasının tikintisi və kompleksi "Cahan" Ticarət Mərkəzi ilə birləşdirən keçidin qurulması da nəzərdə tutulub.

Qeyd edək ki, yaşayış binalarının tikintisi yüksək keyfiyyətlə aparılır və obyektdə yerli inşaat materiallarından istifadəyə üstünlük verilir.

**Xəbərlər şöbəsi**

*21 fevral Beynəlxalq Ana Dili Günüdür*

# Ana dilimiz milli kimliyimizdir

***Hər il fevral ayının 21-i dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur.***

Azərbaycan dili xalqımızın milli varlığının, Azərbaycançılıq məfkurəsinin əsasını təşkil edir. Harada yaşamasından asılı olmayaraq, milyonlarla soydaşımızın mədəni inkişaf və ünsiyyət vasitəsi olan dilimiz tarixən böyük inkişaf yolu keçmiş, zaman-zaman ən müxtəlif təqib və təzyiqlərə məruz qalmış, lakin öz varlığını qoruyub saxlamışdır. Türk dilləri ailəsinə aid olan Azərbaycan dilində bu gün 50 milyondan artıq insan danışır. Böyük rus şairi Mixail Yuryeviç Lermontov Azərbaycan dilinin incəliklərini, zənginliyini, şirinliyini və tutduğu ərazidəki mövqeyini nəzərə alaraq yazırdı: "Azərbaycan dilini öyrənməyə başlamışam. Fransız dili Avropada zəruri olduğu kimi, bu dil də burada, ümumiyyətlə, Asiyada zəruridir".

Dil və xalq ayrılmaz məfhumlardır. Xalqın tarixi taleyini onun dili də yaşayır. Azərbaycan tarix boyu yadelli işğalçıların təsirinə məruz qalmış, nəticədə, doğma dilimiz də çətin sınaqlarla üzləşmişdir. Lakin milli dəyərlərini heç zaman unutmayan xalqımız dilimizin məhv olmasına, yad dillərin təsirinə düşməsinə yol verməmiş, onu qoruyub saxlamış, saflığını, şirinliyini bu günədək gətirib çıxartmışdır. 1919-1920-ci illərdə Azərbaycan Xalq Cümhuriyyəti dilimizi dövlət dili kimi təsdiqləyib. 1936-cı ildən sonra isə Azərbaycan dili rəsmən dövlət dili sayılsa da bu, formal xarakter daşımış və dövlət idarələrində məhdud çərçivədə işlənmişdir.

Dilimizin hərtərəfli inkişafı, onun rəsmi dövlət dili statusu alması, beynəlxalq münasibətlər sisteminə, dünya diplomatiyasına yol tapması xalqımızın ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. 1969-cu ildə ulu öndərimizin Azərbaycana rəhbər seçilməsindən sonra ana dilimizə münasibət də dəyişmişdir. ***"İnkişaf etmiş zəngin dil mədəniyyətinə sahib olan xalq əyilməzdir, ölməzdir, böyük gələcəyə malikdir. Ona görə də xalqımıza ulu babalardan miras qalan ana dilini hər bir Azərbaycan övladı göz bəbəyi kimi qorumalı, daim qayğı ilə əhatə etməlidir"***, – deyən ümummilli lider hakimiyyətdə olduğu illərdə dil siyasətinə mühüm əhəmiyyət vermişdir. Bunun nəticəsidir ki, 1970-ci ildən Azərbaycan dili elmi şəkildə öyrənilmiş, müasir Azərbaycan dilinin problemləri ilə bağlı çoxsaylı elmi-nəzəri əsərlər yaradılmışdır. Ali məktəblər üçün yazılmış dördcildlik "Müasir Azərbaycan dili" dərsliyi 1974-cü ildə məhz ulu öndərin təşəbbüsü ilə respublikanın dövlət mükafatına layiq görülmüşdü. Sovet imperiyası dövründə ümummilli liderimiz böyük cəsarət göstərərək Azərbaycan ədəbi dilinin qorunması və inkişafına xüsusi diqqət yetirirdi. Dahi rəhbər ana dilimizin 1978-ci ildə qəbul edilən Azərbaycan SSR Konstitusiyasında dövlət dili kimi təsbit edilməsinə nail olmuşdur.

Azərbaycan Respublikası müstəqillik qazanandan sonra, bütün sahələrdə olduğu kimi, dil sahəsində də yeni qanunların qəbul edilməsinə zərurət yarandı. Ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra ana dilimizin nüfuzunun artırılması istiqamətində ardıcıl və məqsədyönlü iş aparmağa başladı. Ana dilimizin qorunması, inkişaf etdirilməsi, respublikanın bütün idarə və təşkilatlarında dövlət dili kimi tətbiq edilməsi istiqamətində daha qətiyyətli addımlar atıldı. Görkəmli dövlət xadimi Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilmiş Konstitusiyamızda Azərbaycan dili dövlət dili kimi təsbit edilmişdir. Ulu öndərin "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 2001-ci il 18 iyul və "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2003-cü il 2 yanvar tarixli fərmanları dilimizin və dilçiliyimizin inkişafında yeni bir mərhələnin başlanğıcını qoymuşdur. Həmçinin ümummilli liderin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən, hər il avqustun 1-i ölkəmizdə Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü kimi qeyd olunur.

Ümummilli liderimizin siyasi kursunu uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyev dilimizin daha geniş təbliğinə hərtərəfli imkanlar yaradıb. Bu gün inkişaf etmiş bir çox dünya dövlətlərində Azərbaycan dilində təlim verən məktəblər açılıb, həmin məktəblər doğma dilimizdə olan dərsliklərlə, metodiki və bədii ədəbiyyatlarla təmin edilib. Artıq dilimiz dünyanın mötəbər kürsülərindən eşidilir.

Ölkə Prezidentinin "Azərbaycan Milli Ensiklopediyasının nəşri haqqında" və "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli sərəncamlarına əsasən, latın qrafikalı Azərbaycan əlifbası ilə dərsliklər, elmi əsərlər, lüğətlər və bədii ədəbiyyatlar çap olunaraq ölkə kitabxanalarına paylanılıb. Ölkə Prezidentinin 2013-cü il 9 aprel tarixli "Azərbaycan dilinin qloballaşma şəraitində zamanın tələblərinə uyğun istifadəsinə və ölkədə dilçiliyin inkişafına dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Sərəncamı Azərbaycan dilinə göstərilən qayğının ifadəsi olmaqla yanaşı, həm də bu sahədə bir sıra tədbirlərin həyata keçirilməsinə şərait yaratmışdır. Dövlət Proqramında Azərbaycan dili və dilçiliyi ilə yanaşı, həm də tərcümə fəaliyyəti, terminologiyanın inkişafı, internet resurslarının, elektron və interaktiv dərsliklərin yaradılması məsələləri öz əksini tapmış, televiziya və radiolarda Azərbaycan dilinin norma və qaydalarının qorunması məqsədilə bədii şuralar yaradılmışdır.

Bu gün muxtar respublikamızda da dövlət dil siyasəti uğurla həyata keçirilir. İstər danışıq, istərsə də yazı dilindən düzgün istifadə olunması, ana dilimizin daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi, təbliğ olunması diqqət mərkəzində saxlanılır. Bu istiqamətdə reallaşdırılan tədbirlər ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanır. Naxçıvan şəhərində ucaldılmış "Ana dili" abidəsi dilimizə ehtiramın ən böyük ifadəsidir.

Milli dəyərlərin qorunması, zənginləşdirilməsi, inkişaf etdirilməsi, cəmiyyətdə tutduğu mövqeyindən, peşəsindən, ixtisasından, vəzifəsindən asılı olmayaraq, hər kəsin vətəndaşlıq borcudur. Hər bir Azərbaycan vətəndaşı öz ana dilini qorumalı, onun mənəvi-siyasi nüfuzunu təkcə ölkə daxilində deyil, bütün dünyada yüksəltməyə çalışmalıdır. Ümummilli liderimiz Heydər Əliyevin dediyi kimi: ***"Millətin milliliyini saxlayan onun dilidir. Əgər Azərbaycan dili olmasa, Azərbaycan dilində ədəbiyyat da olmaz. Azərbaycan dili olmasa, Azərbaycan dilində mahnılar olmaz, musiqi olmaz. Bunların hamısı bir-birinə bağlıdır. Azərbaycan dilinin dövlət dili kimi yaşaması, möhkəmlənməsi və inkişaf etməsi də bizim nailiyyətlərimizdən biridir. Bu, təkcə dil məsələsi deyil, həm də Azərbaycançılıq məsələsidir".***

**"Şərq qapısı"**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər 20 fevral 2016-cı il tarixdən 19 mart 2016-cı il tarixədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın internet saytında (***www.dqmk.nmr.az***) elektron xidmətlər bölməsinə daxil olaraq elektron müraciət formasını doldurmaqla qeydiyyatdan keçməlidirlər.

Namizədlər elektron müraciət formasını doldurarkən iddia etdikləri vakant vəzifələrin tutulma şərtlərini nəzərə almalıdırlar.

***Əlavə məlumat almaq üçün:***

**telefon: 545-65-71**
**e-mail: dqmk@nakhchivan.az**

| Vəzifə kodu | Dövlət orqanı və struktur bölmə | Ştat sayı | Təsnifat | Vəzifə |
|---|---|---|---|---|
| **1. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | | | | |
| 200013 | Aparatda hüquqşünas | 1 | 6 | baş məsləhətçi |
| 200223 | Bioloji sərvətlərin bərpası, artırılması və hesaba alınması sektoru | 1 | 6 | baş məsləhətçi |
| 200316 | Meşələrin bərpası, mühafizəsi və meşəsalma sektoru | 1 | 6 | məsləhətçi |
| 200325 | Geologiya və yer təkinin mühafizəsi sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 200326 | Geologiya və yer təkinin mühafizəsi sektoru | 1 | 6 | məsləhətçi |
| 209403 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Şərur rayonu üzrə | 1 | 7 | baş məsləhətçi |
| 202405 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Babək rayonu üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| 205406 | Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Şahbuz rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | | **8** | | |
| **2. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | | | | |
| 210103 | Sosial təminat və əlillərin sosial müdafiəsi şöbəsi | 1 | 6 | baş məsləhətçi |
| 210306 | Əmək münasibətləri və əməyin mühafizəsi sektoru | 1 | 6 | məsləhətçi |
| **2.1. Dövlət Əmək Müfəttişliyi Xidməti** | | | | |
| 211013 | Əməyin mühafizəsi məsələlərinə nəzarət və istehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqi sektoru. Baş əmək müfəttişi | 4 | 7 | baş məsləhətçi |
| 211016 | Əməyin mühafizəsi məsələlərinə nəzarət və istehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqi sektoru. Əmək müfəttişi | 2 | 7 | məsləhətçi |
| 211036 | Əməyin sosial hüquq məsələləri üzrə nəzarət sektoru. Əmək müfəttişi | 2 | 7 | məsləhətçi |
| 211055 | Laboratoriya (sektor səlahiyyətli) | 1 | 7 | aparıcı məsləhətçi |
| **2.2. Dövlət Məşğulluq Xidməti** | | | | |
| 211115 | İşaxtaran və işsiz vətəndaşların sosial müdafiəsi və peşə hazırlığı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 211135 | Əmək birjası sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 214003 | Ordubad Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| 214005 | Ordubad Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| 216005 | Kəngərli Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| 215003 | Şahbuz Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| 217006 | Sədərək Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | məsləhətçi |
| **2.3. Dövlət Sosial Təminat Xidməti** | | | | |
| 211063 | Sosial müavinətlər və sosial yardımların təşkili sektoru | 1 | 7 | baş məsləhətçi |
| 218163 | Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | baş məsləhətçi |
| 218186 | Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 219013 | Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 219036 | Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 2 | 7 | məsləhətçi-mühasib |
| 212025 | Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 212016 | Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | məsləhətçi |
| 212036 | Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 2 | 7 | məsləhətçi-mühasib |
| 214016 | Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | məsləhətçi |
| 214036 | Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 213013 | Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 213023 | Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | baş məsləhətçi |
| 216013 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| 216016 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | məsləhətçi |
| 216025 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 216036 | Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 215025 | Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 215036 | Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 217013 | Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər, sosial yardımlar və sosial xidmətlər sektoru | 3 | 7 | baş məsləhətçi |
| 217016 | Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər, sosial yardımlar və sosial xidmətlər sektoru | 1 | 7 | məsləhətçi |
| 217036 | Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| **2.4. Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Xidməti** | | | | |
| 210113 | Tibbi-sosial ekspertiza sektoru | 1 | 7 | baş məsləhətçi |
| 210114 | Tibbi-sosial ekspertiza sektoru | 1 | 7 | böyük məsləhətçi |
| 210123 | Funksional-diaqnostika və reabilitasiya sektoru | 1 | 7 | baş məsləhətçi |
| 210124 | Funksional-diaqnostika və reabilitasiya sektoru | 1 | 7 | böyük məsləhətçi |
| **Cəmi:** | | **49** | | |

| | | | | |
|---|---|---|---|---|
| | **3. Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi** | | | |
| 220216 | Kütləvi bədən tərbiyəsi və idman şöbəsi. İdman məktəbləri üzrə | 1 | 6 | məsləhətçi |
| 220115 | Gənclərlə iş şöbəsi. Asudə vaxtın təşkili və vətənpərvərlik tərbiyəsi üzrə | 1 | 6 | aparıcı məsləhətçi |
| 222003 | Babək Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 224003 | Ordubad Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 226003 | Kəngərli Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 226016 | Kəngərli Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| 227006 | Sədərək Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **7** | | |
| | **4. Naxçıvan Muxtar Respublikasının Rabitə və Yeni Texnologiyalar Nazirliyi** | | | |
| 270023 | Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| | **5. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi** | | | |
| 298116 | Naxçıvan Şəhər Təhsil Şöbəsi. Kadr üzrə | 1 | 7 | məsləhətçi |
| 299107 | Şərur Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 294105 | Ordubad Rayon Təhsil Şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 295107 | Şahbuz Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 295103 | Şahbuz Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 297107 | Sədərək Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| 297103 | Sədərək Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 297125 | Sədərək Rayon Təhsil Şöbəsi. Təhsilin idarə olunmasının məlumat sistemləri üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **8** | | |
| | **6. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi** | | | |
| 280113 | Tibbi yardımın təşkili şöbəsi. Ginekoloq | 1 | 6 | baş məsləhətçi |
| 280123 | Tibbi yardımın təşkili şöbəsi. Cərrah | 1 | 6 | baş məsləhətçi |
| 280715 | Kadrlar, elm və təhsil sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **3** | | |
| | **7. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi** | | | |
| 246105 | Kəngərli Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 247105 | Sədərək Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| | **8. Naxçıvan Muxtar Respublikasının Mədəniyyət və Turizm Nazirliyi** | | | |
| 250013 | Aparatda hüquqşünas | 1 | 6 | baş məsləhətçi |
| 250126 | Mədəniyyət, mədəni irs və incəsənət şöbəsi. Klub müəssisələri ilə iş üzrə | 1 | 6 | məsləhətçi |
| 250616 | Kadr və ümumi işlər sektoru. Kargüzarlıq üzrə | 1 | 6 | məsləhətçi |
| 252007 | Babək Rayon Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| 255007 | Şahbuz Rayon Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| 257007 | Sədərək Rayon Mədəniyyət və Turizm Şöbəsi | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **6** | | |
| | **9. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi** | | | |
| 300105 | Bitkiçilik məhsullarının istehsalı, toxumçuluq və aqrokimyəvi xidmət şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| 300115 | Texniki nəzarət və aqroservis sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| | **10. Naxçıvan Muxtar Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi** | | | |
| 410105 | Ailə, qadın problemləri və gender məsələləri şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| | **11. Naxçıvan Muxtar Respublikasının Dövlət Meliorasiya və Su Təsərrüfatı Komitəsi** | | | |
| 370105 | Suvarma sistemlərinin istismarı şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| 370206 | Su təchizatı və kanalizasiya sistemlərinin istismarı şöbəsi | 1 | 6 | məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| | **12. Naxçıvan Muxtar Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi** | | | |
| 380203 | Şəhərsalma-arxitektura nəzarəti və texniki normalar şöbəsi. Şəhərsalma norma və qaydalarına nəzarət üzrə | 1 | 6 | baş məsləhətçi |
| 380313 | Şəhərsalma və tikinti obyektlərinin memarlıq şöbəsi. Lisenziyalaşdırma və tərtibatçılarla iş üzrə | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | **2** | | |
| | **13. Naxçıvan Muxtar Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi** | | | |
| 420613 | Hüquq sektoru | 1 | 6 | baş məsləhətçi |
| 420315 | Patent şöbəsi. Analitik tədqiqatlar sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| 420426 | Dövlət nəzarəti şöbəsi. Qeyri-ərzaq məhsullarının keyfiyyətinə və standartına dövlət nəzarəti sektoru | 1 | 6 | məsləhətçi |
| | **Cəmi:** | **3** | | |
| | **14. Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi** | | | |
| 390105 | Sənaye, tikinti, rabitə, nəqliyyat və kommunal statistikası şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| 390806 | Mühasibat uçotu və hesabatı şöbəsi | 1 | 6 | məsləhətçi |
| 399006 | Şərur Rayon Statistika İdarəsi | 1 | 7 | məsləhətçi |
| 392006 | Babək Rayon Statistika İdarəsi | 1 | 7 | məsləhətçi |
| 396005 | Kəngərli Rayon Statistika İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 395003 | Şahbuz Rayon Statistika İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 395007 | Şahbuz Rayon Statistika İdarəsi | 1 | 7 | baş məsləhətçi-baş mühasib |
| 397003 | Sədərək Rayon Statistika İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 397005 | Sədərək Rayon Statistika İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| | **Cəmi:** | **9** | | |
| | **15. Naxçıvan Muxtar Respublikasının Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Komitəsi** | | | |
| 450013 | Aparatda hüquqşünas | 1 | 6 | baş məsləhətçi |
| 458005 | Naxçıvan Şəhər İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 458006 | Naxçıvan Şəhər İdarəsi | 1 | 7 | məsləhətçi |
| 459006 | Şərur Rayon İdarəsi | 1 | 7 | məsləhətçi |
| 452003 | Babək Rayon İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 452005 | Babək Rayon İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 454005 | Ordubad Rayon İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 454006 | Ordubad Rayon İdarəsi | 1 | 7 | məsləhətçi |

| | | | | |
|---|---|---|---|---|
| 456003 | Kəngərli Rayon İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| 456006 | Kəngərli Rayon İdarəsi | 1 | 7 | məsləhətçi |
| 455006 | Şahbuz Rayon İdarəsi | 1 | 7 | məsləhətçi |
| 457005 | Sədərək Rayon İdarəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 457006 | Sədərək Rayon İdarəsi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **13** | | |
| | **16. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya** | | | |
| 400213 | İnformasiya texnologiyaları və proqram təminatı şöbəsi. Mətbuat və ictimaiyyətlə əlaqələr üzrə | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| | **17. Naxçıvan Muxtar Respublikasının Dövlət Sosial Müdafiə Fondu** | | | |
| 490406 | Maliyyə-uçot şöbəsi | 1 | 6 | məsləhətçi |
| 490105 | Gəlirlər şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| 499606 | Şərur Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | məsləhətçi |
| 499906 | Şərur Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 2 | 7 | məsləhətçi-mühasib |
| 499705 | Şərur Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 499806 | Şərur Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | məsləhətçi |
| 492706 | Babək Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | məsləhətçi |
| 494605 | Ordubad Rayon Şöbəsi. Gəlirlər sektoru | 2 | 7 | aparıcı məsləhətçi |
| 494906 | Ordubad Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 494806 | Ordubad Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | məsləhətçi |
| 493805 | Culfa Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 496605 | Kəngərli Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 496706 | Kəngərli Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | məsləhətçi |
| 496805 | Kəngərli Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 496906 | Kəngərli Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| 495706 | Şahbuz Rayon Şöbəsi. Fərdi uçotun təşkili sektoru | 1 | 7 | məsləhətçi |
| 497605 | Sədərək Rayon Şöbəsi. Gəlirlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 497805 | Sədərək Rayon Şöbəsi. Pensiyaların təyinatı sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 497906 | Sədərək Rayon Şöbəsi. Maliyyə-uçot sektoru | 1 | 7 | məsləhətçi-mühasib |
| | **Cəmi:** | **21** | | |
| | **18. Naxçıvan Muxtar Respublikasının Televiziya və Radio Şurası** | | | |
| 530613 | Ekspertiza, proqramlaşdırma və lisenziya sektoru. Ekspertiza və proqramlaşdırma üzrə | 1 | 6 | baş məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| | **19. Naxçıvan Muxtar Respublikasının Auksion Mərkəzi** | | | |
| 540016 | Aparatda | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **1** | | |
| | **20. Naxçıvan Şəhər İcra Hakimiyyəti** | | | |
| 880007 | Aparatda | 1 | 7 | sektor müdiri-baş mühasib |
| 880206 | Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| 881067 | 3 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş məsləhətçi-baş mühasib |
| 881077 | 4 nömrəli sahə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş məsləhətçi-baş mühasib |
| 881017 | Qaraçuq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş məsləhətçi-baş mühasib |
| | **Cəmi:** | **5** | | |
| | **21. Şərur Rayon İcra Hakimiyyəti** | | | |
| 890007 | Aparatda | 1 | 7 | sektor müdiri-baş mühasib |
| 890303 | İctimai-siyasi və humanitar məsələlər şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 890605 | Memarlıq və tikinti şöbəsi. Mühəndis | 1 | 7 | aparıcı məsləhətçi |
| 891422 | Axaməd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 891092 | Axura kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 891102 | Aşağı Yaycı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 891182 | Danyeri kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 891192 | Xanlıqlar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 891412 | Vərməziyar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 891237 | Alışar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891127 | Aşağı Aralıq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891177 | Çomaxtur kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891187 | Danyeri kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891207 | Dizə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891507 | Gümüşlü kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891197 | Xanlıqlar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891497 | Xələc kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891457 | Kosacan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891517 | Kürçülü kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891377 | Kürkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891327 | Məmmədsabir kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891347 | Sərxanlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891077 | Siyaqut kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891137 | Tənənəm kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891367 | Yuxarı Yaycı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 891227 | Zeyvə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **26** | | |
| | **22. Babək Rayon İcra Hakimiyyəti** | | | |
| 820025 | İnformasiya təminatı və təhlili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| 820206 | Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| 820605 | Memarlıq və tikinti şöbəsi. Mühəndis | 1 | 7 | aparıcı məsləhətçi |
| 821112 | Aşağı Buzqov kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 821072 | Çeşməbasar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 821192 | Hacıvar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 821182 | Məmmədrza Dizə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 821117 | Aşağı Buzqov kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 821157 | Didivar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 821127 | Gərməçataq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 821287 | Göynük kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |

| | | | | |
|---|---|---|---|---|
| 821187 | Məmmədrza Dizə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 821277 | Nəhəcir kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 821257 | Payız kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 821097 | Sirab kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 821027 | Şıxmahmud kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 821167 | Yuxarı Uzunoba kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **17** | | |
| | **23. Ordubad Rayon İcra Hakimiyyəti** | | | |
| 840007 | Aparatda | 1 | 7 | sektor müdiri-baş mühasib |
| 840014 | Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi | 1 | 7 | böyük məsləhətçi |
| 840015 | Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu | 1 | 7 | aparıcı məsləhətçi |
| 840104 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi | 1 | 7 | böyük məsləhətçi |
| 840404 | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | böyük məsləhətçi |
| 840405 | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 840605 | Memarlıq və tikinti şöbəsi. Mühəndis | 1 | 7 | aparıcı məsləhətçi |
| 840206 | Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| 841312 | Aşağı Əndəmic kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 841172 | Azadkənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 841222 | Bist kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 841132 | Düylün kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 841182 | Gilançay kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 841272 | Xurs kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 841002 | Ordubad şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 841032 | Şəhriyar qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 841112 | Unus kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 841072 | Vənənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 841042 | Yuxarı Əndəmic kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 841302 | Yuxarı Əylis kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 841057 | Aşağı Əylis kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 841227 | Bist kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 841017 | Gənzə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 841007 | Ordubad şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 841247 | Sabirkənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 841037 | Şəhriyar qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 841217 | Tivi kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 841307 | Yuxarı Əylis kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **28** | | |
| | **24. Culfa Rayon İcra Hakimiyyəti** | | | |
| 830405 | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 830605 | Memarlıq və tikinti şöbəsi. Mühəndis | 1 | 7 | aparıcı məsləhətçi |
| 830206 | Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| 831072 | Bənəniyar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 831042 | Ərəzin kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 831112 | Göydərə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 831092 | Xanəgah kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 831207 | Culfa şəhər inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 831117 | Göydərə kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 831027 | Gülüstan kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 831147 | Qazançı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 831127 | Şurud kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 831167 | Teyvaz kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **13** | | |
| | **25. Kəngərli Rayon İcra Hakimiyyəti** | | | |
| 860014 | Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibi | 1 | 7 | böyük məsləhətçi |
| 860103 | Ərazi idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 860303 | İctimai-siyasi və humanitar məsələlər şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 860206 | Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| 860403 | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 860404 | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | böyük məsləhətçi |
| 860405 | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 860605 | Memarlıq və tikinti şöbəsi. Mühəndis | 1 | 7 | aparıcı məsləhətçi |
| 861012 | Qarabağlar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 861087 | Xıncab kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 861067 | Qabıllı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |

| | | | | |
|---|---|---|---|---|
| 861017 | Qarabağlar kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 861097 | Yeni Kərki kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 861057 | Yurdçu kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **14** | | |
| | **26. Şahbuz Rayon İcra Hakimiyyəti** | | | |
| 850206 | Hüquq şöbəsi | 2 | 7 | məsləhətçi |
| 850403 | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 850405 | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| 850015 | Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu | 1 | 7 | aparıcı məsləhətçi |
| 850605 | Memarlıq və tikinti şöbəsi. Mühəndis | 1 | 7 | aparıcı məsləhətçi |
| 851072 | Ağbulaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 851092 | Aşağı Qışlaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 851012 | Badamlı qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 851172 | Daylaqlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 851062 | Gömür kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 851142 | Şahbuzkənd kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 851192 | Türkeş kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 851177 | Daylaqlı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 851067 | Gömür kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 851167 | Keçili kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 851107 | Kolanı kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 851127 | Qızıl Qışlaq kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 851037 | Mahmudoba kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 851047 | Nursu kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **20** | | |
| | **27. Sədərək Rayon İcra Hakimiyyəti** | | | |
| 870007 | Aparatda | 1 | 7 | sektor müdiri-baş mühasib |
| 870015 | Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın uşaqlarla iş üzrə məsləhətçi-psixoloqu | 1 | 7 | aparıcı məsləhətçi |
| 870303 | İctimai-siyasi və humanitar məsələlər şöbəsi | 1 | 7 | baş məsləhətçi |
| 870206 | Hüquq şöbəsi | 1 | 7 | məsləhətçi |
| 870404 | Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsi | 1 | 7 | böyük məsləhətçi |
| 870716 | Sənədlərlə və vətəndaşların müraciətləri ilə iş şöbəsi | 1 | 7 | məsləhətçi |
| 871002 | Heydərabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 871022 | Qaraağac kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 871012 | Sədərək kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | nümayəndənin müavini |
| 871007 | Heydərabad qəsəbə inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 871027 | Qaraağac kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| 871017 | Sədərək kənd inzibati ərazi dairəsi üzrə nümayəndəlik | 1 | 7 | baş mühasib |
| | **Cəmi:** | **12** | | |
| | **28. Məhkəmə orqanları** | | | |
| 710116 | Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi. Məhkəmə iclas katibi | 2 | 6 | məsləhətçi |
| 710005 | Naxçıvan Muxtar Respublikasının Ağır Cinayətlər Məhkəməsi | 1 | 6 | hakim köməkçisi |
| 800005 | Naxçıvan Muxtar Respublikasının Hərbi Məhkəməsi | 1 | 6 | hakim köməkçisi |
| 810005 | Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi | 1 | 6 | hakim köməkçisi |
| 810116 | Naxçıvan Muxtar Respublikasının İnzibati-İqtisadi Məhkəməsi | 1 | 6 | məsləhətçi |
| 780106 | Naxçıvan Şəhər Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| 780116 | Naxçıvan Şəhər Məhkəməsi. Tərcüməçi | 1 | 7 | məsləhətçi |
| 790005 | Şərur Rayon Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| 790106 | Şərur Rayon Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| 720106 | Babək Rayon Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| 740005 | Ordubad Rayon Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| 740106 | Ordubad Rayon Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| 750005 | Şahbuz Rayon Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| 770005 | Sədərək Rayon Məhkəməsi | 1 | 7 | hakim köməkçisi |
| 770106 | Sədərək Rayon Məhkəməsi. Məhkəmə iclas katibi | 1 | 7 | məsləhətçi |
| | **Cəmi:** | **16** | | |
| | **YEKUN:** | **291** | | |


**ŞƏRQ qapısı**

**Baş redaktor:**
TURAL SƏFƏROV

**Ünvan:** *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Sara Əzimova**
*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 1000. Sifariş № 153**